1) hər iki komponent azərbaycan dilinə məxsus sözlərdən ibarət olanlar: (genetik) məlumat əldə etmə (azərb.) – (genetic) data aqcuisition [ˊdeɪtə ækwɪˊzɪʃn] (ing.) – сбор (генетических) данных (rus); (genetik) məlumat toplama (azərb.) – (genetic) data collection [ˊdeɪtə kəˊlekʃ(ə)n](ing.)– сбор (генетических) данных(rus) – collecta informatio (latın); bitkilərin (süni) yayılması (azərb.) – plant dıstribution [ˊpla:nt dɪstrɪˊbjuʃ(ə)n] (ing.) – распространение растений (искусственным путем) (rus) – planta afugus artificiale (latın); bitkilərin təbii yolla yayılması (azərb.) – plant spreading [ˊpla:nt sprˊedɪŋ] (ing.) – распространение растений (естественным путем) (rus) – planta afugus naturale (latın); müxtəlif cinslərin çarpazlaşdırılması (~ mələzləşdirilməsi, ~ hibridləşdirilməsi) (azərb.) – intercrossing [ˊɪntə:ˊkrosɪŋ](ing.) *syn.*: intergeneric hybridization – скрещивание разных пород (rus); növlərarası mələzləş(dir)mə (~ hibridləş(dir)mə;

2) hər iki komponent Avropa mənşəli sözlərdən ibarət olanlar: adaptiv seleksiya (seçmə) (azərb.) – adaptive selection [əˊdæptɪv sɪˊlekʃ(ə)n] (ing.) – (адаптивный) приспособительный отбор (rus) – selectio adaptiva (latın); aqrotexniki kultivar (aqrotexniki üsulla becərilən mədəni bitki sortu) (azərb.) – agrotechnical cultivar [ˌægro(u) ˊteknɪk(ə)l ˊkΛltɪˊvɑ:] (ing.) = agrotechnical cultivated variety – агротехнический культурный сорт растения (rus) – cultivar agrotechnicus latın); kompleks seleksiya (seçmə) (azərb.) – complex selection [ˊkompleks ˌsɪˊlekʃ(ə)n] (ing.) – комплексный отбор (rus) – selectio complexus (latın); hər üçü eyni zamanda alınmadır.

3) komponentləri müxtəlif dillərə məxsus sözlərdən ibarət olanlar: təcrübə mübadiləsi mexanizmi (azərb.) – practice sharing mechanizm [ˊpræktɪs ˊʃearɪŋ ˊmekənɪzm] (ing.) – механизм обмена опыта (rus) – practicus commutatio modus (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının saxlanması (azərb.) – accession conservation [əˊkseʃ(ə)nˌ kənsə:ˊveɪʃ(ə)n] (ing.) – содержание накопленого материала (rus) – materia conservatio (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının mühafizəsi (azərb.) – accession protection [əˊkseʃ(ə)n prəˊtekʃ(ə)n] (ing.) – защита накопленного материала (rus) – materia protectio (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının dublikasiyası (azərb.) – accession duplication [əˊkseʃ(ə)n ˌdΛplɪˊkeɪʃ(ə)n] (ing.) – дубликация накопленного материала (rus) – materia duplicatio (latın); toplanmış material (sort-nümunə) kolleksiyasının çoxaldılması (azərb.) – accession multiplication [əˊkseʃ(ə)nˌmΛltɪplɪˊkeɪ ʃ(ə)n] (ing.) – размножение (увеличение) накопленного материала (rus) – materia multiplicatio (latın);

4) birinci komponenet *adlıq halında olan isimdən,* ikinci komponent *I və III şəxslər üzrə mənsubiyyət şəkilçisi qəbul etmiş isim*dən ibarət olanlar, məs.: səpin dövrü (azərb.) – sowing period [ˊsouwɪŋˊpɪərɪəd] (ing.) – период посева (rus) – seminatio periodus (latın); suvarma mexanizmi (azərb.) – irrigation mechanizm [ɪrɪ ˊgeɪʃ(ə)n ˊmekənɪzm] (ing.) – механизм орашения (rus) – modus irrigatio (latın); doydurma metodu (azərb.) – enrichment method [ɪn ˊrɪtʃmənt ˊmeθəd] (ing.) – метод обогащения (rus) – methodus ampilificandi (latın); tədqiqat metodları (azərb.) – research methods [rɪˊsə:tʃˊmeθədz] (ing.) – методики исследования (rus) – investigatio methodi (latın); bitki məhsuldarlığı (azərb.) – crop productivity [krop ˌprodΛkˊtɪvɪtɪ] (ing.) – продуктивность культуры (rus) – cultura productivitas (latın); ətraf mühit amili (azərb.) – environmental factor [ɪn ˌvaɪər(ə)nˊment(ə)l fæktə] (ing.) – экологический

фактор (rus) – factor ecologicus (latın); Azərbaycanca “DNT elektroforezi” söz birləşməsi ingilis, rus və latın dillərində müvafiq olaraq: “DNA electrophoresis[΄dı΄en΄eığı΄lektro(u)fə΄rezıs] – электрофорез ДНК – DNA electrophoresis”dir.

5) birinci komponent *sifət*dən, ikinci komponenti *adlıq halda olan isim*dən ibarət olanlar, məs.: genoloji şəcərə (azərb.) – family tree, genealogical tree [̦dʒını΄lodʒık(ə)l trı:] (ing.) – генеалогическое древо (rus) – varianta biologica (latın); genetik material (azərb.) – genetic material [dʒı΄netık mə΄terıəl] (ing.) – генетический материал (rus) – materia geneticus (latın); genetik kod (azərb.) – genetic code [dʒı΄netık΄koud] (ing.) – генетический код (rus) – systéma signórum genéticum (latın);

6) birinci komponent *feli sifət*dən, ikinci komponent *isim*dən ibarət sözlər, məs.: tezyetişən (faraş) meyvə (azərb.) – early-ripened fruit [΄ə:lı΄raıp(ə)nd ΄fru:t] (ing.) – раннеспелый фрукт (rus) – fructus praecox (latın); gecyetişən sort (azərb.) – lateripened variety [leıt΄raıp(ə)nd və΄raıətı] (ing.) – позднеспелый сорт (rus) – cultivar tradimatirus (latın).

7) birinci komponent *say*dan, ikinci komponent *isim*dən ibarət sözlər, məs.: birinci yığım(azərb.) – first harvest [΄fə:st΄ha:vıst] (ing.)– первый урожай(rus) – proventus primus (latın); ikinci biçin (azərb.) – second cut [΄sek(ə)nd kΛt] (ing.) – второй сенокос (rus) – fenisicium secondarus (latın); birinci suvarma – first irrigation [΄fə:stırı΄geıʃ(ə)n] (ing.) – первое орашение (rus) – irrigatio primus(latın);

Bu növ termin-söz birləşmələrdə termin-sözlər də termin-sifətlər kimi, isimlərin əvvəlində heç bir dəyişikliyə uğramır, isimlərin növ və xüsusiyyəti onlara təsir etmir. Bu vəziyyətdə termin saylar heç bir formal əlamət-şəkilçi qəbul etmir. Terminologiyada saylar bilavasitə terminlərin yaranmasında fəal iştirak edir və başqa terminlərlə əlaqəli olur.

Azərbaycan dilində birinci komponent düzəltmə terminlərdən ibarət olan genetika termin-söz birləşmələri də üstünlük təşkil edirlər, məs.: işçi arı (azərb.) – working bee [΄wə:kıŋ bı:] (ing.) – рабочая пчела (rus); apis laborum (latın); – bu kimi termin-söz birləşmələri yanaşma əlaqəsi əsasında əmələ gəldiyindən I növə aiddir. II növ termin-söz birləşmələri şəklində olan genetika terminləri dildə nisbətən çoxluq təşkil edir; terminlərin biri digərini müxtəlif aspektdən təyin etdiyi üçün, bunları bir neçə tipə ayırmaq olar:

1) birinci komponent ikinci komponentin səciyyəvi xüsusiyyətlərini bildirir. Dolayısı ilə, birinci komponent ikincinin konkret olaraq növünü müəyyənləşdirir, məs.: toxum qutusı (qozası) (azərb.) – seedball [΄sı:d bo:l] (ing.) – семенная коробочка (rus); capsula seminalis (latın); göbələk xəstəliyi (azərb.) – fungus disease [΄fΛŋəs dı΄zı:z] (ing.) – грибковая болезнь (rus) – morbi fungus (latın); meyvə ləti – fruit flesh[΄fru:t fleʃ](ing.) – мякоть фрукта(rus); fructus pulpa(latın).

2) birinci komponent ikinci komponentin konkret növünü ifadə edir və asılı komponent xüsusi addan ibarət olur: Mendel nəzəriyyəsi (azərb.) – Mendel’s Theory [΄mendelz ΄θeorı] (ing.) – Теория Менделя (rus) – Theoria Mendelis (latın); Herkules böcəyi (azərb.) – Hercules beetle [΄hə:kȷulı:z ΄bı:tl] (ing.) – жук-Геркулес (rus); Dynastes hercules (latın);

3) birinci komponent ikinci komponentin konkret növünü ifadə edir: kolleksiya bağı (azərb.) – collection garden [kə΄lekʃ(ə)n΄ga:dn] (ing.) – коллекционный сад (rus) – hortus collectaneus (latın); əmələgəlmə (yaranma) mənbəyi (azərb.) – source of origin [΄so:səvə΄rıgn] (ing.) – источник образования (rus) – formatio fons (latın);

Bu tip genetika termin-söz birləşmələri də çoxluq təşkil edirlər: mutasiyaların populyasiyada təsadüfi yayılması (azərb.) – genetic drift [dʒı΄netık΄drıft] (ing.) – случайное распространение мутаций в популяции (rus) – vagabundus geneticus (latın); eyni vaxtda iki bitkinin becərilməsi (azərb.) – double cropping [΄dΛbl΄kropıŋ] (ing.) – одновременное культивирование двух культур (rus) – biformis cultura simultaneus cultivatio (latın); nümunələrin səciyyələndirilməsi (azərb.) – accession characterization [ə ΄kseʃ(ə)n ̦kærıktər(a)ı ΄zeıʃ(ə)n] (ing.) – характеристика поступлений (rus) – materia character (latın); biomüxtəlifliyin mühafizəsi(azərb.)– biodiversity protection [΄baıo(u)daı΄və:sıtı prə ΄tekʃ(ə)n](ing.)– защита биоразнообразия (rus) – protecto varitata biologica (latın).

Üçüncü tip termin söz birləşmələri özlərinə müxtəlif termin cəlb edərək öz tərkiblərini say etibarı ilə genişləndirirlər, məs.: biomüxtəlifliyin dayanıqlı istifadəsi (azərb.) – sustainable use of biodiversity [səs΄teınəbl΄ju:z əv ΄baıo(u)daı΄və:sıtı] (ing.) – рациональное использование биоразнообразия (rus) – varitata biologica usus rationalis (latın); bitki genetik ehtiyatlarının elmi araşdırılması (azərb.) – scientific investigation of plant genetic resources [̦saıən ΄tıfı k̦ınvestı΄geıʃ(ə)nəv ΄pla:nt dʒı΄netık rı΄so:sız] (ing.) – научное исследование генетических ресурсов ратительностей (rus) – scientificus geneticae copiae vegetabiles (latın).

Termin-söz birləşməsi strukturlu terminlər üç cür olur:

a) birinci növ təyini söz birləşməsindən ibarət olanlar, məs.: faraş meyvə (azərb.) – early-ripend fruit [΄ə:lı ΄raıp(ə)nd ΄fru:t] (ing.) –

раннеспелый фрукт (rus) – fructus praecox (latın); yeni sort (azərb.) – recent variety [ˈrısənt və ˈraıətı] (ing.) – новый сорт (rus) – cultivar novus (latın);

b) ikinci növ təyini söz birləşməsindən ibarət olanlar, məs.: növlər+arası (azərb.) – interspecific [ˌıntə(:)spıˈsıfık] (ing.) – межвидовой (rus) – interspecıficus (latın); növ+daxili (azərb.) – intraspecific [ˌıntrəspıˈsıfik] (ing.) – внутривидовой (rus) – ıntraspecificus (latın); inbrid çarpazlaşma əmsalı (azərb.) – coefficient of inbreeding [ˌkəuıˈfıʃ(ə)nt əvˈınˈbrı:dıŋ] (ing.) – коэффициент инбридного скрещивания (rus) – hybridizatio inbreed coĕfficiens (latın); (bu, genetika termin birləşməsində "indbrid" – qohumlararası mənasını verən alınmadır);

c) üçüncü növ təyini söz birləşməsindən ibarət olanlar, məs.: biomüxtəlifliyin mühafizəsi (azərb.) – protection of biodiversity [prəˈteıkʃ(ə)n əvˈbaıo(u)daıˈvə: sıtı] (ing.) – защита биоразнообразия (rus) – varitata biologica protectio (latın); biomüxtəlifliyin (davamlı) istifadəsi (azərb.) – (sustainable) use of biodiversity [səsˈteınəbl ˈju:z əv ˈbaıo(u)daı ˈvə:sıtı] (ing.) – (рациональное) использование биоразнообразия (rus) – varitata biologica usus (rationalis) (latın); bitki genetik ehtiyatlarının elmi araşdırılması (azərb.) – scientific investigation of plant genetic resources [ˌsaıənˈtıfık ˌınvestıˈgeıʃ(ə)n əv ˈpla:nt dʒıˈnetık rıˈso:sız](ing.) – научное исследование генетических ресурсов растительностей (rus) – scientificus geneticae copiae vegetabiles (latın).

Tərəfləri ingilis mənşəli komponentlərdən ibarət olan terminlər də vardır ki, onlar digər struktura malikdirlər; həmin sözlər əsasən - *elektro, izo, metr, qrafiya* morfemlərinin iştirakı ilə əmələ gəlir, məs.: elektro+fiziologiya (azərb.) – electro-physiology [ıˈlektrəˌfızıˈoləʤı](ing.) – электрофизиология (rus) – electro-physiologia (latın); elektro+şok (azərb.) – electroshock (therapy) [ıˈlektrə ˈʃok] (ing.) – электрошок (rus) – electroaffectio (latın); izoxron (eyni vaxtda baş verən) (azərb.) – isochronous [aıˈsokrənəs] (ing.) = isochronic – изохронный, одно-временный (rus) – isochronus (latın); bio+metrik (azərb.) – biometric [baıə(u) ˈmıtrık](ing.) – био-метрический (rus) – biometricus (latın); geo+botanika (azərb.) – geobotany [dʒeo ˈbotənı] (ing.) – геоботаника (rus) – geobotanica (latın); digər misal: layering [ˈleıərıŋ] – *syn.:* propagation by layering – rusca "размножение отводками", azərbaycan dilində "qollarla çoxalma", latın dilində "ablactatio"; – bu mürəkkəb termin birləşməsinin birinci hissəsi "qollarla" sözü "qat, lay, sira, şitil, qələm (bitkidən qoparılaraq ayrıca əkilən gövdə və ya kök parçası)" və s. mənalarını verən ingilis mənşəli "layer" sözündən formalaşıb və termin birləşməsinin ikinci hissəsini təyin edir; **nitq hissəsi kimi düzəltmə sifət, yəni isim (qol) + cəm şəkilçisi (lar) + qoşma (la) + say(çox) + felin əmr şəklini əmələ gətirən şəkilçi(al) + düzəltmə isim əmələ gətirən şəkilçi(-ma).** Seminification [ˌsemınıfıˈkeıʃ(ə)n] – rusca "размножение семенами", azərbaycanca "toxumla çoxalma", latınca "seminificatio"; – istinad olunmuş lüğətdən göründüyü kimi (Даниленко,1986), latın mənbələrindən gələn "seminifikasiya" kimi terminlər beynəmiləl terminlərdir, lakin bu terminin istər rus, istərsə azərbaycan dillərində müvafiq variantı mövcuddur. Bu mürəkkəb termin birləşməsinin birinci hissəsi "toxumla" sözü termin birləşməsinin ikinci hissəsini təyin edir; nitq hissəsi kimi düzəltmə sifət, **yəni isim (toxum) + qoşma (la) + say (çox) + felin əmr şəklini əmələ gətirən şəkilçi (al) + düzəltmə isim əmələ gətirən şəkilçi (-ma)**. Double F_1 [ˈdΛblˈefˈwΛn] – потомок от скрещивания двух гибридов F_1 от разных родителей (потомок (F_1) от скрещивания двух разных гибридов)(rus) – ikiqat mələz/hibrid (iki F_1 hibridinin çarpazlaşmasından alınan nəsil); propagator [ˈpropəgeıtə] – a) производитель потомства (о животных) (rus); a) nəsil artıran (heyvanlar barədə), (döllük heyvan); b) фермер, сеятель (о человеке, занимающемся высаживанием и выращиванием растений) – b) fermer, əkinçi (bitki əkilməsi və becəreilməsi ilə məşğul olan adam).

Ingilis dilinə mənsub təksözlü terminoloji vahidin və anlayışla birlikdə çoxkomponentli terminin alınması hadisəsi zamanı, azərbaycan dilində yeni genetika termini yaranarkən, termindüzəltmənin iki üsulunun – leksik və sintaktik üsullarının özünəməxsus birləşməsini qeyd etmək lazımdır. Əgər təksözlü terminoloji vahid nominasiyanın ehtiyacını ödəməyə qabil deyilsə, onda mürəkkəb tərkibli anlayışlara müraciət olunur. Söz birləşmələrinə müraciət anlayışların sintaktik üsulla mənalandırılması işində əsas yer tutan müasir genetika terminologiyasında termin yaradıcılığıyla bağlıdır. Ona görə də o, istər tərkib baxımından, istərsə ifadəolunma baxımından azərbaycan, rus və ingilis dillərinin əsas səciyyəsindən ibarətdir. Bu, ingilis, rus və azərbaycan dillərinin termin sistemi üçün də səciyyəvidir. Göstərilən termin sistemlərinin terminoloji söz birləşmələrinin özünəməxsus xüsusiyyəti özünü onda göstərir ki, onlar ingilis leksemlərinin azərbaycan və rus termin sistemlərinə gətirilməsi nəticəsində bu dillər üçün ümumiləşirlər. Genetika termin söz birləşmələri nominasiyanın tamlığı xüsusiyyətinə malik olaraq (aşaıdakı kimi) genetikanı təqdim edən anlayışların möhkəm bir strukturudur, məs.: environmental effect resistance [ınˈvaıər(ə)n ment(ə)l ıˈfekt ˈrezıstəns] (ing.) – устойчивость к действию

окружающей среды (rus) – ətraf mühit təsirinə davamlılıq (azərb.) – resistantia ad cicumstantia (latın); symbiosis living beans [ˌsımb(a)ı´ousıs ´lıvıŋ ´bı:nz] (ing.) – живые организмы, живущие в симбиозе (rus) – simbioz (müştərək) həyat sürən canlılar (azərb.) – viva organisms in symbiosis (latın); amphibian [æm´fıbıən] (ing.) – земноводное (rus) – suda-quruda yaşayanlar (azərb.) – amphibius (latın).

Terminoloji söz birləşmələri onların mürəkkəb daxili semantik strukturu olan əsas və asılı komponentlərdən və onların arasındakı əlaqədən ibarətdir.

Əsas komponent – **əsas məna daşıyan söz**, asılı komponent isə **əsas mənanı tamamlayan söz** formasından ibarətdir. Nominasiya vasitəsi kimi terminoloji söz birləşməsi əsas komponent adlanan hadisə, proses və hərəkət mənasını verir, ondan sonra asılı komponent vasitəsilə dəqiqləşdirilir, məs.: aktiv zəhərli heyvanlar (azərb.) – active poisonous animals [´æktıv ´poıʐnəs ´ænıməlz] (ing.) – особо ядовитые животные (rus) – animale venonosus (latın); aseptik heyvanlar – micro-organismfree animals [´maıkrə(u) ˌo:gə ´nızm frı: ´ænıməlz] (ing.) – асептические животные (rus) – animale asepticae (latın); inbred heyvanlar (yaxın qohum fərdlərin mələzləşdirilməsindən alınan) – inbred animals [´ınbred´ænıməlz] (ing.) инбредные животные(rus) – animale hybridizatio Helychrysum arenarium (latın).

Buradan belə nəticəyə gəlmək olar ki, genetika terminlərinin rus və ingilis dillərində yaradılmasında olduğu kimi, azərbaycan dilində də sintaktik üsul əsas üsullardan biridir.

ƏDƏBİYYAT

Dəmirçizadə Ə.M. (1962) Azərbaycan dilinin üslubiyyəti, Bakı: Azərnəşr: 319 s.

Qasımov M.Ş. (1973) Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Elm: 186 s.

Kazımov Q.S. (2002) Müasir Azərbaycan dili. Bakı, Ünsiyyət: 420 s.

Sadıqova S.A. (2002) Azərbaycan dili terminologiyasının nəzəri problemləri. Bakı, Elm: 230 s.

Sönməzoğlu F. (2000) Uluslararası ilişkilər sözlüğü. Istanbul, Der yayınları: 774 s.

Бируни и Теофраста. (2011) О применении аконита/ http://www.nova.rambler.ru/search.

Бреус Е.В. (2000) Основы теории и практики перевода с русского языка на английский. М. http://www.englspace.com/dl/details/breus.zip.

Городилова Г.Г. (1989) 30 (см. Е.В.Бреус: http://www.englspace.com/dl/details/breus.zip)

Гуляев Г.В, Мальченко В.В. (1975) Словарь терминов по генетике, цитологии, селекции, семеноводству и семеноведению. М.: Россельхозиздат: 216 с.

Даниленко, (1986): 2, 21 (см. Е.В.Бреус: http://www.englspace.com/dl/details/breus.zip)

Козловский В.Г, Ракипов Н.Г. (1983) Англо-русский сельско-хозяйственный словарь. М.: Русский язык, 880 с.

Лотте Д.С. (1948): 154 (см. Е.В.Бреус: http://www.englspace.com/dl/details/ breus.zip)

Ожегов С.И. (1957) О структуре фразеологии лексикографического сборника. М.: вып.2, с.51-52.

Генетические Термины, Созданные Синтаксическим Способом

М.А. Наджафзаде[1,2]

[1] Институт ботаники НАНА
[2] Институт лингвистики НАНА

Разъясняется, что синтаксический способ в терминообразовании генетики на азербайджанском (также как на русском и английском языках) – один из основных способов терминообразования; представляется их сопоставительно-лингвистический анализ на английском, русском, азербайджанском и латинском языках. Говорится о том, что при терминообразовании таким путем, обычно используются две и/или больше словосочетаний. Рекомендуется, не принимать терминообразования генетики на азербайджанском как определение эквивалентов для терминов, принадлежащих английскому и русскому языкам.

Ключевые слова: *генетические термины, многокомпонентные термины, способ терминообразования, общетеоретическая деривация*

Terms Of Genetics Derived By Syntactic Method

M.A.Najafzadeh

[1] *Institute of Botany, ANAS*
[2] *Institute of Linguistics, ANAS*

The syntactic way in term derivation of Genetics in the Azerbaijan language (like in Russian and English) is one of the basic ways; their comparative linguistic analysis in English, Russian, Azerbaijani and Latin is given here. Usually two and/or more word-combinations are used in term derivation by the syntactic way. It is recommended: not to accept the term derivation of Genetics in Azerbaijani like equivalent definition for English and Russian terms.

Key words: *Terms of Genetics, Multicomponenet terms, Methods of term derivation, General theoretical derivation*

AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №3, səh. 172-176 (2013)

Azərbaycanın Şirvan Zonası Çaylarının Makrozoobentosu

S.İ. Əliyev

AMEA Zoologiya İnstitutu, A.Abasov küç., 1128 döngə, Bakı AZ1073, Azərbaycan;
E.mail: alisaleh@rambler.ru

Məqalədə Azərbaycanın Şirvan zonası çaylarının makrozoobentosu haqqında məlumat verilir. Tədqiqat zamanı çaylardan 15 sistematik qrupa daxil olan 102 növ makrobentik orqanizm aşkar olunmuşdur. Onlardan 11 növ xironomid sürfələrinə, hər biri 10 növ olmaqla molyuska və sərtqanadlı böcəklərə aiddir. Digər qruplar isə 2-9 növlə təmsil olunmuşdur. Bentik orqanizmlərin biokütləsi 0,29-0,69 q/m^2, sayı isə 76-182 fərd/m^2 arasında dəyişmişdir. Növlərin maksimal sayı Göyçayda (70 növ), minimal sayı isə Dəmiraparançayda (42 növ) müşahidə olunur.

Açar sözlər: *makrozoobentos, biokütlə, saprobluq, indikator*

GİRİŞ

Azərbaycanın Şirvan zonası Böyük Qafqazın cənub yamacında yerləşir. Bölgənin çayları dağ əlamətlərinə xas olan - sürətli axara, oksigen zənginliyi, aşağı temperaturlu suya və s. xüsusiyyətlərə malikdir. Çayların mühüm iqtisadi əhəmiyyəti olub, onlardan əhalinin su təhcizatında, suvarma işlərində, enerji alınmasında, balıqçılıq təsərrüfatının inkişaf etdirilməsində geniş istifadə olunur. Şirvan zonası çaylarının hidrofaunası, onun mühüm tərkib hissəsi olan makrozoobentosu indiyə qədər tədqiq olunmamışdır. Məlumdur ki, makrobentik orqanizmlər su hövzələrinin bioloji məhsuldarlığının formalaşmasında mühüm rol oynayır. Eyni zamanda həmin orqanizmlər suyun təbii yolla bioloji təmizlənməsində fəal iştirak edir, bəzi növləri isə suyun üzvi maddələrlə çirklənmə dərəcəsinin göstəricisidirlər, ekosistemdə qida zəncirinin bir həlqəsini təşkil edirlər.

MATERİAL VƏ METODLAR

2008-2009-cu illərdə ilk dəfə olaraq Böyük Qafqazın cənub yamacında yerləşən Şirvan zonasının Axoxçay, Axsuçay, Bumçay, Dəmiraparançay, Girdimançay, Göyçay, Vəndamçay, Turyançay çaylarının müxtəlif hissələri və biotoplarından makrozoobentosa dair nümunələr toplanıb təhlil olunmuşdur. Tədqiqat işləri V.Jadin (1956) metodu əsasında yerinə yetirilmişdir. Bölgənin çaylarından 15 sistematik qrupa daxil olan 102 növ bentik orqanizm aşkar olunmuşdur. Aşkar olunan növlərin 62 növü (61%) su həşəratlarının payına düşür. Su həşəratlarından isə 11 növü xironomid sürfələrinə, 10 növü sərtqanadlılara, 9 növü gündəcələrə, 7 növü isə iynəcə sürfələrinin payına düşür. Digər qruplar isə molyuskalar 10, azqıllı qurdlar 7 növlə təmsil olunmuşlar. Minimal sayda isə (3 növ) onayaqlı xərçənglərdə müşahidə olunur (Cədvəl 1).

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Axoxçay Əyriçayın sağ qolu olub, başlanğıcını Böyük Qafqazın cənub yamacından (2000m) alır. Çayın uzunluğu 25 km, hövzəsinin sahəsi 691 km^2, İsmayıllı rayonu ərazisindən axır (Məmmədov, 2002; Müseyibov, 1998; Həsənov, 1973). Suyunun əsas hissəsini yağış suları təşkil edir. Çayda tez-tez sel hadisələri müşahidə olunur. Tədqiqat dövründə suyun temperaturu 9,6-22,4^{o}C, pH-ı 7.1-7,4, oksigen rejimi 8,6-8,8 mq/l olmuşdur. Çaydan toplanmış materialların təhlili nəticəsində 14 sistematik qrupa daxil olan 64 növ bentik orqanizm qeydə alınmışdır (Cədvəl 1). Növlərin sayına görə molyuskalar dominantlıq təşkil edir (8 növ). Minimal sayda növ onayaqlı xərçənglər və su gənələrində (hər biri 2 növ) müşahidə olunmuşdur. Növlərinin sayına görə ikinci yerdə gündəcə sürfələri durur (7 növ). Digər qruplar isə 2-6 növlə təmsil olunmuşlar. Aşkar olunan növlərin rastgəlmə intensivliyinə görə *Costatella acuta, Anisus spirorbis, Valvata pulchella, Corbicula cor, Sphaerium lacustre, Ephemella ignita, Baetis rhodani, Caenis macrura, Ordella macrura, Notonecta lutea, Bidessus pusillus, Ecnomus tenellus, Limnophilus flavicornis, Leptocerus tineiformis, Oecetis furva* və s. növlər fərqlənirlər.

Bentik orqanizmlərin ümumi biokütləsi 0,35 q/m^2, sayı isə 110 fərd/m^2 olmuşdur. Qruplar üzrə orqanizmlərin biokütləsi 0,02-0,08 q/m^2, sayı isə 8-22 fərd/m^2 arasında dəyişmişdir (Cədvəl 2).

Çayda say dinamikası və biokütləsinə görə bulaqçılar (22 fərd/m^2; 0,08 q/m^2) üstünlük təşkil edir. 2-ci yerdə isə molyuskalar (16 fərd/m^2; 0,04 q/m^2) durur.

Axsuçay başlanğıcını Böyük Qafqaz dağlarının

cənub yamacından alır. Uzunluğu 75 km, hövzəsinin sahəsi 631km^2-dir (Məmmədov, 2002; Müseyibov, 1998; Həsənov, 1973). Müşahidələr zamanı suyun temperaturu 14-25,2^{o}C, pH-ı 7,8-7,9, oksigen rejimi 8,9-9.1 mq/l olmuşdur. Çaydan 14 sistematik qrupa daxil olan 55 növ bentik orqanizm aşkar olunmuşdur. Aşkar olunan qruplar içərisində növlərin sayına görə bulaqçılar (8 növ) dominantlıq təşkil edir. Digər qruplar isə 2-6 növlə təmsil olunmuşlar (Cədvəl 1). Növlərin rastgəlmə intensivliyinə görə *Nais communis, Branchiura sowerbyi, Eiseniiella tetraedra, Piscicola geometra, Hydrobia longiscata, Ecnomus tenellus, Hydropsyche ornatula, Limnophilus flavicornis, Leptocerus tineiformis, Oecetis furva, Corixa punctata, Berosus spinosus, Procladius choerus* və s. növlər fərqlənirlər.

Çayda bentik orqanizmlərin biokütləsi 0,50 q/m^2, sayı isə 128 fərd/m^2 olmuşdur. Orqanizmlərin qruplar üzrə biokütləsi 0,01-0,12 q/m^2, sayı isə 6-30 fərd/m^2 arasındda dəyişmişdir. Say dinamikası və biokütləsinə görə gündəcə sürfələri (30 fərd/m^2; 0,12 q/m^2) dominantlıq təşkil etmişdir (Cədvəl 2).

Bumçay başlanğıcını Böyük Qafqaz dağ silsiləsinin cənub yamacından (3400 m yüksəklikdən) alır. Turyançayın sol qolu olub, uzunluğu 51 km, hövzəsinin sahəsi 450 km^2-dır. Qəbələ rayonunun ərazisindən axır (Məmmədov, 2002; Müseyibov, 1998; Həsənov, 1973).

Tədqiqat zamanı çaydan 10 sistematik qrupa daxil olan 56 növ bentik orqanizm qeydə alınmışdır.Aşkar olunan növlərin sayına görə 1-ci yerdə xironomid sürfələri (9 növ). 2-ci yerdə isə gündəcə sürfələri (8 növ) dominantlıq edir. Sonrakı yerləri yarımsərtqanadlılar (7 növ), azqıllı qurdlar (6 növ) tutur (Cədvəl 1). Digər qruplar isə 3-5 növlə təmsil olunurlar. Çayda növlərin rastgəlmə intensivliyinə görə *Branchiura sowerbyi, Lumbricillus lineatus, Eiseniella tetraedra, Costatella integra, Valvata pulchella Gammarus lacustris, Eylais hamata, Lestes sponsa, Baetis rhodani, Siphlonurus linnaenus, Cloeon dipterum, Corixa punctata, Sigara falleni, Berosus spinosus, Tabanus sp., Helius sp., Stempellina bausei, Micropsectra praecox, Chironomus thummi* və s. növlər dominantlıq təşkil edirlər.

Çayda bentik orqanizmlərin biokütləsi 0,28 q/m^2, sayı isə 76 fərd/m^2 olmuşdur. Qruplar üzrə orqanizmlərin biokütləsi 0,01-0,08 q/m^2, sayı isə 2-18 fərd/m^2 arasında dəyişmişdir (cədvəl 2).

Dəmiraparançay başlanğıcını Baş Qafqaz dağ silsiləsinin cənub yamacından (3850 m yüksəklikdən) alır. Bu çay Türyançayı əmələ gətirən əsas qollardan biri olub, Qəbələ rayonu ərazisindən axır. Uzunluğu 69 km, hövzəsinin sahəsi 596 km^2-dir. Tədqiqat dövründə suyun temperaturu 15,1- 24,2^{o}C, pH – 7,4-7.6, oksigen rejimi 8,6-8,8 mq/l olmuşdur.

Çaydan 12 sistematik qrupa daxil olan 42 növ bentik orqanizm qeydə alınmışdır. Aşkar olunan növlərin sayına görə bulaqçılar (7 növ) dominantlıq təşkil edir. Digər qruplar 1-5 növdən ibarət olmuşdur (Cədvəl 1).

Cədvəl 1. Şirvan zonası çaylarının makrozoobentosunun qruplar üzrə növlərinin sayı

№	Qruplar	Çaylar								
		Növlərin ümumi sayı	**Axoxçay**	**Ağsuçay**	**Bumçay**	**Dəmiraparançay**	**Girdimançay**	**Göyçay**	**Vəndamçay**	**Türyançay**
1	*Oligochaeta*	7	5	5	6	3	4	4	3	5
2	*Hirudinea*	6	5	2	-	-	1	2	2	3
3	*Mollusca*	10	8	4	3	2	3	8	6	4
4	*Ostracoda*	3	3	-	-	-	3	2	2	-
5	*Amphipoda*	7	4	3	2	3	5	4	3	2
6	*Decapoda*	3	2	2	-	2	2	2	1	3
7	*Hydracarina*	4	2	2	-	-	2	2	1	2
8	*Odonata*	7	4	5	6	4	4	7	6	8
9	*Ephemeroptera*	9	7	6	8	5	4	8	7	4
10	*Trichoptera*	8	6	8	5	7	5	8	7	3
11	*Hemiptera*	7	5	3	7	3	3	5	4	2
12	*Coleoptera*	10	4	4	6	4	5	6	7	5
13	*Diptera*	8	3	4	5	3	4	5	4	3
14	*Chironomidae*	11	6	5	9	5	4	9	5	2
15	*Ceratopogonidae*	2	-	2	-	1	2	-	2	-
	Cəmi	102	64	55	56	42	51	70	58	46

Cədvəl 2. Şirvan zonası çaylarının makrozoobentosunun sayı və biokütləsi ((fərq/q)·m^2)

№	Qruplar	Çaylar							
		Axoxçay	**Ağsuçay**	**Bumçay**	**Dəmiraparançay**	**Girdimançay**	**Göyçay**	**Vəndamçay**	**Türyançay**
1	*Oligochaeta*	10 / 0,03	6 / 0,02	2 / 0,01	4 / 0,02	12 / 0,04	14 / 0,05	-	-
2	*Mollusca*	16 / 0,04	20 / 0,10	18 / 0,08	14 / 0,05	10 / 0,02	40 / 0,20	24 / 0,14	-
3	*Amphipoda*	8 / 0,03	16 / 0,05	-	20 / 0,08	-	26 / 0,08	-	20 / 0,05
4	*Odonata*	14 / 0,06	22 / 0,10	-	10 / 0,04	-	-	24 / 0,14	24 / 0,14
5	*Ephemeroptera*	14 / 0,04	30 / 0,12	18 / 0,05	-	13 / 0,03	30 / 0,12	-	20 / 0,06
6	*Trichoptera*	22 / 0,08	16 / 0,06	10 / 0,03	18 / 0,04	-	10 / 0,03	20 / 0,08	-
7	*Hemiptera*	-	12 / 0,04	-	-	16 / 0,06	-	10 / 0,02	-
8	*Coleoptera*	8 / 0,02	6 / 0,01	12 / 0,04	-	10 / 0,07	10 / 0,04	14 / 0,04	12 / 0,03
9	*Diptera*	10 / 0,03	-	16 / 0,07	20 / 0,08	6 / 0,01	36 / 0,10	8 / 0,01	11 / 0,02
10	*Chironomidae*	8 / 0,02	-	-	-	18 / 0,06	16 / 0,07	10 / 0,04	20 / 0,08
	Cəmi	110 / 0,35	128 / 0,50	76 / 0,28	84 / 0,34	95 / 0,29	182 / 0,69	102 / 0,36	111 / 0,30

Növlərin rastgəlmə intensivliyinə görə *Auloforus furcatus, Lymnaea stagnalis, Anisus spirorbis, Gammarus matienus, Agrion virgo, Anax imperator, Ecnomus tenellus, Hydropsyche ornatula, Leptocerus tineiformis, Oecetis furva, Hydrometra stagnorum, Velia rivulorum, Colymbetes fuscus, Limnochironomus tritomus, Endochironomus dispar* və s. növlər fərqlənirlər. Çayda bentik orqanizmlərin biokütləsi 0,34 q/m^2, sayı isə 84 fərd/m^2 olmuşdur (Cədvəl 2).

Girdimançay başlanğıcını Babadağ aşırımının 1 km cənub-şərqindən (2900 m yüksəklikdən) alaraq, süni kanal vasitəsilə Kür çayına sol tərəfdən birləşir. Uzunluğu 88 km, hövzəsinin sahəsi 727 km^2-dir. Suyu sulfatlı-natriumlu olmaqla minerallaşması 560 mq/l-dir.

Müşahidələr dövründə çaydan 51 növ bentik orqanizm aşkar edilmişdir. Aşkar olunan növlərin sayına görə bulaqçılar (7 növ) dominantlıq təşkil edir. Qalan qruplar 1-5 növdən ibarətdir (cədvəl 1). Rastgəlmə intensivliyinə görə isə *Nais elinguis, Lymnaea auricularia, Ancylus fluviatilis, Corbicula fluminalis, Pontogammarus robustoides, Ecnomus tenellus, Hydropsyche ornatula, H.instabilis, Leptocerus tineiformis, Oecetis furva, Gyrinus minutus* və s. növlər dominantlıq təşkil edir.

Çayda bentik orqanizmlərin biokütləsi 0,29 q/m^2, sayı isə 95 fərd/m^2 arasında dəyişmişdir (Cədvəl 2).

Göyçay çayı başlanğıcını Böyük Qafqazın cənub yamacından (1980 m yüksəklikdən) alıb, sol tərəfdən süni kanal vasitəsilə Kür çayına birləşir. Cənub yamacdan axan çaylar arasında ən çox sululuğa malik olması ilə fərqlənir.

Tədqiqat dövründə çayın suyunun temperaturu 12,3-21,8°C, pH 7,4-7,5, oksigen rejimi 8,1-8,4 mq/l olmuşdur.

Çaydan 14 sistematik qrupa daxil olan 70 növ bentik orqanizm aşkar olunmuşdur (cədvəl 1). Növlərin sayına görə xironomid sürfələri (9 növ), molyuskalar, gündəcə sürfələri, bulaqçılar, sərtqanadlılar hər biri 8 növlə dominantlıq təşkil edir. Sonrakı yerləri iynəcə sürfələri (7 növ), yarımsərtqanadlılar (5 növ) tutur. Növlərin rastgəlmə intensivliyinə görə *Lymnaea auricularia, Costatella acuta, Corbicula cor, Coenagrion scitulum, Lestes sponsa, Agrion virgo, Ecnomus tenellus, Hydropsyche ornatula, H. instabilis, Oecetis furva, Notonecta lutea, Gerris lacustris, Hydroporus planus, Tabanus sp., Tipula sp., Cryptochironomus defectus, Ch.thummi, Einfeldia pagana, Limnochironomus nervosus, Endochironomus tendens, Microtendipes chloris* və s. növlər fərqlənirlər.

Çayda bentik orqanizmlərin biokütləsi 0,69

q/m^2, sayı isə 182 fərd/m^2 olmuşdur. Miqdarca inkişafına görə molyuskalar (40 fərd /m^2; 0,20 q/m^2) üstünlük təşkil edir. Qruplar üzrə orqanizmlərin biokütləsi 0,03-0,20 q/m^2, sayı isə 10-40 fərd/m^2 arasında dəyişmişdir (Cədvəl 2).

Vəndamçay Göyçay çayının sağ qolu olub, Kür çayına birləşir. Uzunluğu 98 km, hövzəsinin sahəsi 629 km^2-dir.

Tədqiqat dövründə suyun temperaturu 13,4-19,6^{o}C, pH-ı 7,1-7,2, oksigen rejimi 8,9-9,0 mq/l olmuşdur (Məmmədov, 2002; Müseyibov, 1998; Həsənov, 1973).

Çaydan 15 sistematik qrupa daxil olan 58 növ bentik orqanizm qeydə alınmışdır. Aşkar olunan qruplardan xironomid sürfələri (8 növ), gündəcə sürfələri, bulaqçılar, sərtqanadlılar (hər biri 7 növlə) dominantlıq təşkil etmişdir. Qalan qruplar isə 1-6 növdən ibarətdir. Növlərin rastgəlmə intensivliyinə görə *Auloforus furcatus, Lymnaea auricularia, Corbicula cor, Valvata pulchella, Gammarus lacustris, Palaemon elegans, Sympucna fusca, İschnura elegans, Ephemerella ignita, Caenis macrura, Cloeon dipterum, Laccophilus hyalinus, Gyrinus minitus, Hydrous piceus, Lymnophilia sp., Ephydra sp., Procladius choerus* və s. növlər fərqlənirər.

Çayda bentik orqanizmlərin biokütləsi 0,36 q/m^2, sayı isə 102 fərd/m^2 olmuşdur. Saya görə gündəcə sürfələri (30 fərd/m^2), biokütləyə görə molyuskalar 0,20 q/m^2 üstünlük təşkil edir (Cədvəl 2).

Türyançay Kür çayının sol qolu olub, Baş Qafqaz silsiləsinin cənub yamacından axaraq Qəbələ, Ucar, Ağdaş və Zərdab rayonlarının ərazisindən axır. Uzunluğu 180 km, hövzəsinin sahəsi 1840 km^2-dir (Məmmədov, 2002; Müseyibov, 1998; Həsənov, 1973). Başlanğıcını Bazardüzü dağının cənub-qərb yamacından (3680 m yüksəklikdən) götürür.

Müşahidələr zamanı çaydan 46 növ bentik orqanizm aşkar edilmişdir. Növlərin rastgəlmə intensivliyinə görə *Nais communis, N.elinguis, Lymnaea auricularia, Corbicula cor, Coenagion concinnum, C.scitulum, Agrion virgo, Ephemerella ignita, Baetis rhodani, Ecnomus tenellus, Hydropsyche ornatula, Leptocerus tineiformis, Chironomus thumnu* və s. növlər fərqlənirlər.

Çayda bentik orqanizmlərin miqdarca inkişafı müxtəlif olmuşdur. Orqanizmlərin qruplar üzrə biokütləsi 0,02-0,08 q/m^2, sayı isə 11-26 fərd /m^2 arasında dəyişmişdir. Bentik orqanizmlərin ümumi biokütləsiu 0,30 q/m^2, sayı isə 111 fərd/m^2 olmuşdur.

Bentik orqanizmlərin saprob zonalar üzrə yayılması da araşdırılmışdır (Макрусин, 1974, Семерной, 2002, Танкевич, 2008). Məlum olmuşdur ki, çaylardan aşkar olunan 102 növün 80-i oliqosaproblar, 12 növü β-mesosaproblara, 10 növü isə digər qruplara (ʆ-mesosaprob, polisaproblara) aiddir.

Məlumdur ki, çaylarda bentik orqanizmlər fəsillərdən asılı olaraq, eyni zamanda suyun axın sürətindən asılı olaraq dəyişir. Cədvəl 1-dən göründüyü kimi çaylarda molyuskalar (12 növ), gündəcə sürfələri (10 növ), sərtqanadlılar (10 növ) digər qruplar isə 2-8 növlə təmsil olunmuşlar. Qeyd etmək lazımdır ki, alınan nəticələr bölgədə balıqçılıq (forel balıqlarının) təsərrüfatının inkişaf etdirilməsində istifadə olunacaqdır.

ƏDƏBİYYAT

Məmmədov M.A. (2002) Azərbaycanın hidroqrafiyası. Bakı: Nafta-pressa: 169 s.

Müseyibov M.A. (1998) Azərbaycanın fiziki coğrafiyası. Bakı: Maarif: 398 s.

Həsənov M.A. və b. (1973) Azərbaycanın çayları, gölləri və su anbarları. Bakı: Azərb. Dövlət nəşriyyatı: 135 s.

Жадин В.И. (1956) Методика изучения донной фауны водоемов и экологии донных безпозвоночных. *В кн: Жизнь пресных вод СССР,* **4 (часть I):** 226-288

Макрушин А.В. (1974**)** Биологический анализ качества вод. Л., ЗИН АН ССР: 60 с.

Семерной В.П. (2002) Санитарная и техническая гидробиология. Ярославский государственный университет: 150 с.

Танкевич П.Б. (2008) Санитарная и техническая гидробиология. Керченский ГМТУ: 80 с.

Макрозообентос Рек Ширванской Зоны Азербайджана

С.И.Алиев

Институт зоологии НАНА

В статье дана информация о макрозообентосе рек Ширванской зоны Азербайджана. В ходе исследования было выявлено 102 вида макробентических организма, относящихся к 15 систематическим группам. Из них 11 видов относятся к личинкам хирономид, каждый из которых представлен 10 видами моллюсков и жесткокрылых насекомых. Остальные группы представлены 2-9 видами. Биомасса бентических организмов составила 0,29-0,69 г/м^2, а количество колебалось от 76 до 182 экз./м^2. Максимальное количество видов наблюдается в Гейчае (70 видов), а минимальное количество в Демирапаранчае (42 вида).

Ключевые слова: *макрозообентос, биомасса, сапробность, индикатор*

Macrozoobenthos Of Shirvan Zone Rivers Of Azerbaijan

S.I. Aliyev

Institute of Zoology, ANAS

The article provides information on macrozoobenthos of the rivers of Shirvan area of Azerbaijan. İn the study there were identified 102 species of makrobentic organisms belonging to 15 taxonomic groups. 11 species of organisms are larvae of chironomids, each represented by 10 species of mollusks and coleopteran insects. Other types of groups are presented by 2-9 species. Biomass of benthic organisms was 0.29-0.69 g/m^2, and their number ranged from 76 to 182 ind./m^2. Maximum number of species was observed in Geychai (70 species), and the minimum number in Demiraparanchai (42 species).

Key words: *makrozoobentos, biomass, saprobe, indicator*

AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №3, səh. 177-183 (2013)

Eymerioz (*Eimeria Tenella*) Zamanı Oksidreduktaza və Transferaza Siniflərindən Olan Bəzi Fermentlərin Aktivliyinin Dinamikası

E.İ.Əhmədov

AMEA Zoologiya İinstitutu, A.Abasov küç., 1128 döngə, Bakı AZ1073, Azərbaycan;

Yerli cinsdən olan qara toyuq cücələrinin eymeriozu və onun baykoksla müalicəsi zamanı qanın eritrositlərində qlutationreduktaza (QR) (EC.1.6.4.2) və qlukozo-6-fosfatdehidrogenazanın (Q-6FDH) (EC.1.1.1.49), qan zərdabında laktatdehidrogenazanın (LDH) (EC.1.1.1.27), qara ciyərdə, beyin və əzələlərində isə aspartataminotransferaza (AST) (EC.2.6.1.1) və alaninaminotrasferazanın (ALT) (EC.2.6.1.2) aktivliyi öyrənilmişdir. Müəyyən edilmişdir ki, 2,5%-li baykoksun 2ml/litr dozası (2 ml preparat 1 litr suda həll edilmişdir) ilə yoluxdurulmuş quşların müalicəsi orqanizmdə baş verən patoloji proseslərin qarşısını alır, qanın hematoloji göstəricilərinin və QR-in aktivliyinin normada saxlanılmasına səbəb olur. Q-6FDH-nın aktivliyi yoluxdurulmuş quşların eritrositlərində kontrolla müqayisədə azalır, müalicə olunanlarda isə əksinə onun aktivliyi artır. Baykoks eritrositlərdə Q-6FDH aktivliyində əlavə dəyişikliklərə səbəb olur. LDH-nın aktivliyi isə yoluxdurulmuş quşlarda invaziyanın prepatent dövründə azalır. Müalicə məqsədilə tətbiq edilən baykoks LDH-nın aktivliyinin bərpa olunmasına səbəb olmur. Yoluxdurulmuş quşların əzələlərində ALT-nin aktivliyinin dəyişməsi qara ciyər və beyində olduğu kimi baş verir. AST-nin ən yüksək aktivliyi beyin, qara ciyər və əzələlərdə, ALT–nin ən yüksək aktivliyi isə əzələlərdə olur. Qara ciyər və beyində AST-nin aktivliyi eynidir, qara ciyərdə isə ALT-nin aktivliyi beyindəkindən yüksəkdir.

Açar sözlər: *ALT, AST, eritrosit, eymerioz, ferment, hemoqlobin, koksidioz, Q-6FDH, LDH*

GİRİŞ

Koksidiozun 100 ildən artıq bir müddətdə öyrənilməsinə və ona qarşı müxtəlif yeni mübarizə və profilaktika tədbirlərinin tətbiq edilməsinə baxmayaraq koksidioz hələ də dünyanın quşçuluq təsərrüfatlarına iqtisadi zərər vurmaqda davam edir (Maxwell, 1997; Julian, 1993; Maxwell, Robertson, 1997; Dallouil, Lillehoj, 2006; Guo et al., 2007; Kraljevi et al., 2009). Fermentlərin öyrənilməsi parazitar xəstəliklər zamanı patoloji proseslərin mexanizmlərinin aydınlaşdırılmasında böyük əhəmiyyət kəsb edir. Belə ki, fermentlərin iştirakı ilə sahibin toxumalarında və parazitdə mürəkkəb biokimyəvi proseslər həyata keçirilir. Parazitar xəstəliklər, o cümlədən də koksidioz, sahibin orqanizmində fermentlərin aktivliyinin dəyişməsinə səbəb olur (Wirz et al., 1990; Jaff et al., 1996; Zantop, 1997; Prat, Kaplan, 2000; Sabatakou et al., 2007; Topchiyeva, Ahmadov, 2011).

Fermentlərin öyrənilməsi xəstəliklərə qarşı müalicə və profilaktika tədbirlərinin aparılmasında və effektiv seçici xüsusiyyətə malik, sahibin orqanizminə təsir etməyən yeni dərman preparatlarının yaradılması və sınaqdan keçirilməsində böyük əhəmiyyət kəsb edir.

Ədəbiyyat məlumatlarının təhlili göstərir ki, koksidiozun müalicə və profilaktikasında tətbiq edilən preparatların qan, beyin, qara ciyər, əzələ kimi toxumalarda fermentlərin aktivliyinə təsirinin öyrənilməsi istiqamətində aparılan tədqiqatlar çox azdır (Gokhan et al., 2004). Bu tədqiqatların hamısı broyler cücələri üzərində aparılmışdır. Digər cinslərdən olan cücələr üzərində bu istiqamətdə aparılan tədqiqat işlərinə təsadüf etmədik.

Tədqiqatlarda məqsəd, yerli cinsdən olan qara toyuq cücələrinin eymeriozu və onun baykoksla müalicəsi zamanı qanın eritrositlərində QR və Q-6FDH, qan zərdabında LDH, qara ciyər, beyin və əzələlərdə AST və ALT aktivliyinin dinamikasının tədqiqidir.

MATERİAL VƏ METODLAR

Tədqiqatlar AMEA Zoologiya İnstitutu Parazit-sahib münasibətlərinin biokimyəvi əsasları laboratoriyasında 2010-2013-cü illərdə yerli cinsdən olan 80 baş toyuq cücələri üzərində aparılmışdır. Sutkalıq cücələr institutun vivariumunda steril şəraitdə 20 günlük yaşa qədər böyüdülmüşdür. Bu zaman quşlar standart broyler təsərrüfatlarında istifadə edilən tərkibində antikoksidiostatik əlavələr və antibiotiklər olmayan yemlə qidalandırılmışdır. 20 günlük cücələr kontrol (20 cücə) və təcrübə qrupu olmaqla (60 cücə) iki qrupa ayrılmışdır. Təcrübə qrupunun cücələri *Eimeria tenella* parazitinin 20000 sporlaşmış oosistasını cücələrin çinədanına pipetka vasitəsilə daxil edilməklə yoluxdurulmuşdur.

İkinci qrupun cücələri yoluxdurmadan 1 sutka sonra yenidən iki qrupa ayrılmışdır. Birinci qrupa baykoks (2,5%-li baykoksun 2 ml–ni 1L suda həll etməklə) verilmiş, ikinci qrup isə yoluxdurulmuş kontrol qrup kimi saxlanılmışdır.

Biokimyəvi analizlər üçün yoluxdurma və müalicənin 3, 5, 7 və 10-cu günləri 5 cücə kəsilmişdir. Eritrositlərdə QR aktivliyini təyin etmək üçün 1:10 nisbətində distillə suyu ilə yuyulmuş eritrositlərdən 0,05ml götürərək, içərisində 1,8 ml 0,1M kalium fosfat buferi (pH 7,0) 1mM EDTA və 0,1 ml oksidləşmiş qlutation olan (optiki yolu 10 mm) küvetə əlavə edilmişdir. Sonra məhlulun üzərinə 0,1 ml NADF·H əlavə edilərək 3 dəqiqə müddətində 340 nm dalğa uzunluğunda optiki sıxlığı ölçülmüş, fermentin aktivliyi mkmol/dəqiqə·*l* ifadə edilmişdir (Карпищенко, 2013).

Eritrositlərdə Q-6FDH aktivliyi spektrofotometrik metodla öyrənilmişdir. Bu metod Q-6FDH fosfoqlükolaktona oksidləşməsi zamanı NADF·H-ın miqdarının spektrofotometrik üsulla təyininə əsaslanır. Bu metoda görə qan 10 dəqiqə 3000 dövr/dəqiqə (BioSan LM-3000) sentrifuqa edildikdən sonra plazma atılıb, çöküntü soyuq fizioloji duz məhlulunda yuyulmuşdur (antikoaqulyant kimi natrium sitratdan istifadə edilmişdir). Sınaq şüşələrindən birinə 4,7 ml fizioloji duz məhlulu, digərinə isə 4,7 ml inisiator mühiti (4,1 ml buferləşdirilmış fizoloji duz məhlulu (136 q $KH_2PO_4 \cdot 2H_2O$+70q NaON+1 litrə qədər distillə suyu)+0,5 ml askorbin turşusu məhlulu +0,05 ml dəmir sulfat məhlulu+0,05 ml D_3 vitaminin spirtdə məhlulu) əlavə edilmişdir. Sonra sınaq şüşələrinin hər birinə 0,3 ml yuyulmuş eritrosit əlavə edilərək 30 dəqiqə 37°C-də inkubasiya olunmuşdur. Eritrositlərin hemolizatı isə aşağıdakı qaydada hazırlanmışdır. 0,3 ml eritrosit çöküntülərinin hər birinin üzərinə 1,2 ml soyuq distillə suyu əlavə edilərək (0,02% diqitonin məhlulunun iştirakı ilə) 4°C-də 30 dəqiqə saxlanıldıqdan sonra 3000 dövr/dəqiqə sürətlə 10 dəqiqə müddətində sentrifuqa edilib. Sentrifuqatdan tədqiqatlarda istifadə olunmuşdur.

Fermentin aktivliyini təyin etmək üçün spektrofotometrin küvetinə 2,9 ml trietanol buferi, 0,02 NAD və 0,02 ml hemolizat əlavə edilib qarışdırılmışdır, otaq temperaturunda (25°C) 5 dəqiqə saxlanıldıqdan sonra onun üzərinə qlükozo-6-fosfat əlavə edilmişdir. Substrat məhlulu əlavə edilən kimi nümunənin 340 nm dalğa uzunluğunda 5 dəqiqə müddətində, hər dəqiqədən bir optiki sıxlığı ölçülmüşdür. Q-6FDH-nın aktivliyi, mkmol/saat·qHb ilə göstərilmişdir (Карпищенко, 2013).

Qan zərdabında LDH aktivliyi 2,4-dinitrofenilhidrazin reaksiyasına (Sevel-Tovareka metodu) görə öyrənilmişdir (Кондрахина, 2004).

LDH-nın aktivliyini təyin etmək üçün 1:2 nisbətində duruldulan 0,1 ml qan zərdabı 0,3 ml NAD məhlulu ilə qarışdırılıb, 5 dəqiqə 37°C temperaturda saxlandıqdan sonra üzərinə 0,8 ml 0,03 mol/l natrium pirofosfat və əvvəlcədən 37^0C-yə qədər qızdırılmış 0,02 ml 0,45mol/l natrium laktat əlavə edilib 37°C-də 15 dəqiqə müddətində inkubasiya olunmuşdur. İnkubasiyadan həmən an sonra onun üzərinə 0,5ml 2,4-dinitrofenilhidrazin əlavə edilərək otaq temperaturunda 20 dəqiqə saxlanılmış, sonra onun üzərinə 5ml 0,4mol/l natrium hidroksid məhlulu əlavə edilərək 10 dəqiqə gözlədikdən sonra spektrofotometrdə optiki yolu 1 sm olan küvetdə, 500nm dalğa uzunluğunda optiki sıxlığı ölçülmüşdür. Fermentin aktivliyi kalibrovka qrafikinə görə hesablanmışdır. LDH aktivliyi nmol NAD/saat·l ilə göstərilmişdir (Кондрахина, 2004).

ALT və AST-nin aktivliyi dinitrofenil-hidrazin (Raytman və Frenkel metodu) metodu ilə təyin edilmişdir (Колб, Камышников, 1976).

Quşlar dekapitasiya olunduqdan sonra tez bir anda çıxarılan orqandan 1q toxuma götürülərək üzərinə 1:9 nisbətində 0,25M saxaroza məhlulunda hazırlanan 0,1 mM ETDA əlavə edilərək soyuq mühitdə şüşə homogenizatorda əzilmişdir. Alınan homogenat 10 dəqiqə 5000 dövr/dəqiqə sürətlə K24 sentrifuqasında çökdürülmüşdür. Supernatant saxaroza məhlulunda 1:50 nisbətində duruldulmuşdur. AST-nin aktivliyini təyin etmək üçün sınaq şüşəsinə 0,5 ml substrat məhlulu əlavə edilmiş və onun da üzərinə 0,1ml homogenat əlavə edilərək sınaq şüşəsi 1 saat müddətində 37°C-də termostatda saxlanılmışdır. 1 saatdan sonra sınaq şüşəsinə 0,5 ml dinitrofenilhidrazin əlavə edilib 20 dəqiqə müddətində otaq temperaturunda saxlanılmış, vaxt tamam olandan sonra məhlulun üzərinə 5 ml 0,4 N NaOH məhlulu əlavə edilərək otaq temperaturunda 10 dəqiqə rəngin intensivləşməsi üçün saxlanılmışdır. Nümunənin optiki sıxlığı 530 nm dalğa uzunluğunda ölçülmüşdür.

AST-nin aktivliyini təyin etmək üçün sınaq şüşəsinə əlavə edilən 0,5 ml substratın üzərinə 0,1 ml homogenant əlavə edilərək termostatda 30 dəqiqə müddətində 37°C temperaturda inkubasiya edilmişdir. Analizin sonrakı mərhələsi ALT-nin aktivliyinin müəyyən edilməsi zamanı istifadə olunan üsulda olduğu kimi olmuşdur. Aminotrasfera-zanın aktivliyinin hesablanması piroüzüm turşusuna görə qurulan kalibrovka əyrisi əsasında hesablanmışdır. Fermentlərin aktivliyinin hesablanmasında homogenatın duruldulması nəzərə alınmış, hesablamalarda 1 q toxumaya (mq zülal) görə ifadə edilmişdir. ALT və AST-nin aktivliyi mkmol/ml·saat ilə ifadə edilmişdir.

Alınan məlumatların statistik işlənilməsin-də

İBM Statistics 20 proqramından istifadə edilmişdir. P<0,05 olduqda baş verən dəyişikliklərin statistik dürüst olduğu qəbul edilmişdir.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Alınan nəticələrin təhlili göstərdi ki, yoluxdurulmuş cücələrdə hemoqlobinin miqdarı azalır. Hemoqlobinin və hematokritin ən az miqdarına invaziyanın 7-ci günü təsadüf olunur (müvafiq olaraq P<0,01 və P<0,05) (Ахмедов, 2012).

Yoluxdurulmuş cücələrin baykoksla müalicəsi qanda hemoqlobinin və hematokritin miqdarının azalmasının qarşısını alır. Onların miqdarının kontrol qrupun göstəricilərindən az olmasına baxmayaraq, invaziyanın 7-ci günü istisna olmaqla (müvafiq olaraq P<0.01 və P<0.05) statistik dürüst deyil (cədvəl 1).

2 saylı cədvəldə verilən məlumatlardan məlum olur ki, sağlam 23 günlük qara cücələrin qan zərdabında LDH aktivliyi quşların yaşı artdıqca artır.

E.tenella-nın 20000 oosistası ilə yoluxdurulan qrupda LDH-nın aktivliyi azalır. İnvaziyanın 3-cü günü yoluxdurulan qrupun göstəricisi kontrol qrupun göstəricisindən 0,188 nmol/saat·l aşağı olur (P<0,001). Baykoksla müalicə olunan qrupun göstəriciləri isə həm kontrol, həm də yoluxdurulan qrupun göstəricisindən müvafiq olaraq 0,276 və 0,088 nmol/saat·l az olmuşdur. Göründüyü kimi baykoksun müalicə məqsədi ilə tətbiqinin ilk günləri preparat LDH-nın aktivliyinin yoluxdurulan qrupun göstəricilərinə nisbətən daha da azalmasına səbəb olur ki, bu preparatın əlavə təsiri ilə izah edilə bilər. Çünki preparatın verilməsi dayandırıldıqdan sonra (invaziyanın 5-ci günü) LDH-nın aktivliyi yoluxdurulan qrupun göstəricisinə nisbətən artmağa başlayır.

Yoluxdurulan qrupdan olan cücələrin qan zərdabında LDH-nın aktivliyi invaziyanın 7-ci günü invaziyanın 5-ci gününə nisbətən artmağa başlayır. Lakin, LDH-nın aktivliyi kontrol qrupun göstəricisindən 0,018 nmol/saat·l çox olmasına baxmayaraq statistik dürüst deyil (P>0,05). İnvaziyanın 7-ci günü müalicə olunan qrupda LDH aktivliyi kontrol və yoluxdurulan qrupun göstəricisindən aşağı, invaziyanın 5-ci gününün göstəricisindən isə 0,186 nmol/saat·*l* çox olur. Bu preparatın təsirindən LDH-nın aktivliyinin bərpa olunmağa başladığını göstərir. İnvaziyanın 10-cü günü həm yoluxdurulan və həm də müalicə olunan qrupda LDH-nın aktivliyi normaya qayıdır.

Beləliklə, müalicə məqsədilə baykoksun 2ml/l dozada tətbiqi merontların 1 və 2-ci generasiyası zamanı LDH-nın aktivliyinin bərpa olunmasına səbəb olmur.

Sağlam qara toyuq cücələrin eritrositlərində QR-ın aktivliyinin öyrənilməsi göstərdi ki, cücələrin yaşı artdıqca fermentin aktivliyi azalır. *E.tenella* ilə yoluxdurulan cücələrin eritrositlərində QR-ın aktivliyinin artması invaziyanın 3-cü günündən başlayır və bu proses invaziyanın 7-ci günü də davam edir. İnvaziyanın 3-cü və 5-ci günləri QR-in aktiv-liyi tədricən artsa da, 7-ci gün onun aktivliyi sürətlə artaraq 8,586 mkmol/dəqiqə·*l*-ə qədər yüksəlir (kontrol qrupda 6,688 mkmol/dəqiqə·*l*). İnvaziyanın 10-cu günü QR-in aktivliyi əvvəlki

Cədvəl 1. Qara toyuq cücələrinin qanında hemoqlobinin və hematokritin miqdarının dəyişməsi (M±m, n=5)

Günlər	Kontrol cücələrin göstəriciləri		Yoluxdurulmuş cücələrin göstəriciləri		Müalicə edilən cücələrin göstəriciləri	
	Hemoqlobin, q%	Hematokrit, %	Hemoglobin, q%	Hematokrit, %	Hemoglobin, q%	Hematokrit, %
3	8,622±0,07	20,2	8,610±0,05	20,0	8,608±0,04	20,1
5	8,482±0,37	21,2	8,400±0,03	21,0	8,478±0,05	21,0
7	8,620±0,02	21,4	8,280±0,05**	19,1*	8,600±0,19	21,3
10	8,700±0,11	21,6	8,600±0,06	21,0	8,607±0,05	21,2

Qeyd: * - P<0.05, ** - P<0.01

Cədvəl 2. Qara toyuq cücələrinin eymeriozu və onun baykoks ilə müalicəsi zamanı qan zərdabında QR-ın və eritrositlərdə LDH-nın aktivliyinin dinamikası

Günlər	QR, mkmol/dəqiqə·*l*, M±Sd			LDH, nmol/saat·*l*, M±Sd		
	Kontrol	Yoluxdurulan	Müalicə edilən	Kontrol	Yoluxdurulan	Müalicə edilən
3	6,692±0,14	7,378±0,14 P<0,05	6,490±0,14 P>0,05	0,784±0,01	0,596±0,02 P<0,001	0,508±0,01 P<0,001
5	6,690±0,14	7,294±0,14 P<0,05	6,498±0,14 P>0,05	0,788±0,01	0,506±0,01 P<0,001	0,512±0,01 P<0,01
7	6,688±0,13	8,586±0,14 P<0,01	6,884±0,13 P>0,05	0,788±0,02	0,806±0,02 P>0,05	0,698±0,03 P<0,05
